# "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Sənədlərin Ekspertizası və Arxiv İşi üzrə Mərkəzi Ekspert Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 14 may tarixli 146 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Sənədlərin Ekspertizası və Arxiv İşi üzrə Mərkəzi Ekspert Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 14 may tarixli 146 nömrəli Sərəncamını "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"ın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 569 nömrəli Fərmanına uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

"Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Sənədlərin Ekspertizası və Arxiv İşi üzrə Mərkəzi Ekspert Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 14 may tarixli 146 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, N 5, maddə 307; 2010, N 2, maddə 80) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin sərəncamla təsdiq edilmiş Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Sənədlərin Ekspertizası və Arxiv İşi üzrə Mərkəzi Ekspert Komissiyasının tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın sədri**

| | | |
|---|---|---|
| Süleyman İsmayılov | - | Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri |

**Komissiyanın üzvləri:**

| | | |
|---|---|---|
| Fatma Abdullazadə | - | Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri |
| Fuad Ələsgərov | - | Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri |
| Şahin Əliyev | - | Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri |
| Eldar Nuriyev | - | Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət nəzarəti şöbəsinin müdiri |
| Tələt Məcidov | - | Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Kadr məsələləri şöbəsinin müdiri |
| Səadət Yusifova | - | Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi təhlil və informasiya təminatı şöbəsinin müdiri |
| Azər Əmiraslanov | - | Azərbaycan Respublikası Prezidentinin İqtisadi islahatlar üzrə köməkçisi xidmətinin Aqrar və sənaye məsələləri şöbəsinin müdiri |
| Mail Rəhimov | - | Azərbaycan Respublikasının iqtisadi siyasət məsələləri üzrə dövlət müşavirinin xidmətinin İqtisadi siyasət məsələləri şöbəsinin müdiri |
| Əli Hüseynov | - | Azərbaycan Respublikası Prezidentinin işlər müdirinin müavini |
| Ataxan Paşayev | - | Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisi". |

2. Həmin sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Sənədlərin Ekspertizası və Arxiv İşi üzrə Mərkəzi Ekspert Komissiyası haqqında Əsasnamə" üzrə:

2.1. I-III hissələrin adlarının qarşısındakı rum rəqəmləri ərəb rəqəmləri ilə əvəz edilsin;

2.2. 1-ci hissə üzrə:

2.2.1. 2-ci bənddən "Azərbaycan Respublikası Prezidentinin Administrasiyası haqqında Əsasnaməni," sözləri çıxarılsın və "işə dair" sözləri "iş barədə" sözləri ilə əvəz edilsin;

2.2.2. 4-cü bənddə "Ümumi şöbənin" sözləri "Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin" sözləri ilə əvəz edilsin;

2.3. 3-cü hissə üzrə:

2.3.1. 1-ci bənddə "II bölməsində" sözləri "2-ci hissəsində" sözləri ilə əvəz edilsin;

2.3.2. 3-cü bəndin ikinci cümləsindən "bir qayda olaraq" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyul 2016-cı il*